

# Birliyin, qüdrətin və zəfərin təminatçısı



**Tarixin müxtəlif dövrlərində çətin sınaqlar qarşısında qalan Azərbaycan xalqının böyüklüyü məsuliyyətli anlarda öz milli ideyaları və uzaqgörən milli lideri ətrafında birləşə bilməsindədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşən xalqımız məhz Ümummilli Liderin həyata keçirdiyi böyük tarixi missiya sayəsində Azərbaycanın müstəqilliyi və suverenliyi üçün yaranmış ən ağır böhranlı vəziyyətlərdən çıxa bildi, dövlətçiliyimizin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə nail oldu.**

Azərbaycan xalqının Ulu Öndərin ideyalarının layiqli davamçısı olan Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında bir yumruq kimi birləşməsi isə Azərbaycanın qüdrətli bir dövlətə çevrilməsi, ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin təmin olunması kimi böyük tarixi missiyanın həyata keçirilməsi ilə nəticələndi.

Ölkəmizə rəhbərliyi dövründə Prezident İlham Əliyevin apardığı siyasət xalqımızın mənəvi-psixoloji cəhətdən möhkəmlənməsi, vətəni, onun mənafelərini hər şeydən uca tutan bütöv bir nəslin yetişməsi ilə əlamətdar olub. Bu hal Vətən müharibəsi zamanı Azərbaycan oğullarının göstərdiyi yüksək qəhrəmanlıq nümunələri, xalqın vahid amal ətrafında bir yumruq kimi sıx birləşməsi şəklində təzahür etdi.

Prezident İlham Əliyevin illərlə apardığı məqsədyönlü, ardıcıl və uzaqgörən siyasəti etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşlarını monolit birliyə çevirdi, onların bir nəfər kimi birləşərək azğın düşmənin başını əzməsi ilə nəticələndi. Xalqımızın birliyini təmin edən İlham Əliyev erməni təbliğatının illərlə Azərbaycan xalqını parçalamaq üçün göstərdiyi səyləri də boşa çıxardı. Məhz bu siyasətin məntiqi nəticəsi idi ki, vaxtilə Ulu Öndərin söylədiyi "Hamımızın bir vətəni var, bu da Azərbaycandır" kəlamını rəhbər tutan Azərbaycan əsgəri şanlı zəfəri təmin etdi, dünya hərb tarixinə qəhrəmanlıq salnamələri yazdı.

İlham Əliyevin apardığı uzaqgörən siyasət "azərbaycanlılarla birgə yaşamağın mümkün olmaması" barədə erməni təbliğatının illərlə yaydığı daha bir uydurmanı darmadağın etdi. Vətən müharibəsi zamanı etnik və dini baxımdan fərqli, lakin mənəviyyat baxımından eyni olan çoxsaylı xalqların sarsılmaz qardaşlıq ailəsi olan Azərbaycan xalqı dövlətinin və Prezidentinin ətrafında birləşərək bu yalanı ifşa etdi.

Vətən müharibəsi zamanı öz mənəvi saflığını, vətənə sədaqətini bir daha göstərən Azərbaycan xalqının oğullarını cəbhəyə gülə-gülə, şəhidini isə son mənzilə "Vətən sağ olsun!" deyərək yola salması bu istiqamətdə həyata keçirilən dövlət siyasətinin nə qədər sağlam əsasa malik olduğunu bir daha sübut etdi. Yeganə övladını belə Vətən yolunda qurban verən Azərbaycan anaları və ataları dünyaya vətənpərvərlik dərsi keçməklə Azərbaycan xalqının və dövlətinin qüdrətini bir daha nümayiş etdirdilər.

Vətəndaşların milli vətənpərvərlik ruhunda düzgün tərbiyəsinin nəticəsi idi ki, minlərlə Azərbaycan gənci Vətən müharibəsi zamanı könüllü olaraq cəbhəyə yollandı, sinəsini düşmən gülləsinə sipər edərək öz qanları və canları bahasına müqəddəs torpaqlarımızda üçrəngli bayrağımızı dalğalandırdılar. Düşmənin on min fərarisi olduğu halda cənab Ali Baş Komandanın fəxrlə vurğuladığı kimi, Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmadı.

Canını vətənə sipər etmiş Azərbaycan oğulları xüsusilə cənab İlham Əliyevin hakimiyyəti dövründə gənclərin vətənpərvərlik ruhunda formalaşması istiqamətində aparılmış siyasətin yetirmələri idilər. Ali Baş Komandan məhz bu məqama diqqət çəkərək vurğulamışdı: "Son 17 ildə yetişən gənclər bu torpaqları azad etdilər". Bəli, Vətən müharibəsinin iştirakçılarının bir çoxu Birinci Qarabağ müharibəsindən sonra anadan olmuş, 30 ilə yaxın işğal altında qalan torpaqları heç zaman görməmişdilər. Lakin aldıqları düzgün tərbiyə, qəlblərində olan vətən sevgisi, mənfur düşmənə qarşı bəslədikləri nifrət onları Vətən torpaqlarının azad olunması kimi müqəddəs bir vəzifəni yerinə yetirməyə sövq etdi.

Dünya tarixinə nəzər saldıqda məlum olur ki, öz xalqını vahid amal ətrafında birləşdirmək çox az liderə nəsib olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə həyatının bütün sahələrində apardığı uğurlu siyasət onu sözün həqiqi mənasında xalqın qəlbini fəth edən böyük liderə çevirib. Məhz bu sevginin nəticəsi idi ki, Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" çağırışı bütöv bir xalqı ayağa qaldıra, dünya tarixində bənzəri olmayan şanlı zəfərə sövq edə bildi.

Bu gün Azərbaycan xalqı deyiləndə Ali Baş Komandan İlham Əliyev, İlham Əliyev dedikdə isə Azərbaycan xalqı başa düşülür. İlham Əliyevin xalqın birliyinə əsaslanan siyasi xətti hazırda Azərbaycan Respublikasının qüdrətli bir dövlət kimi dünya dövlətləri arasında öz layiqli yerini tutmasına səbəb olub. Məhz bu birliyin nəticəsidir ki, Ermənistan və onun xarici himayədarlarının bütün cəhdlərinə və təxribatlarına baxmayaraq, Azərbaycan dövlət sərhədləri və ayrılmaz tərkib hissəsi olan Qarabağ regionu üzərində öz suveren hüquqlarını bərpa edə bildi. Bu, müasir dünyamızda demək olar ki, oxşar problemləri olan digər dövlətlərin əldə edə bilmədiyi çox mühüm uğurdur. Eyni zamanda bu, öz xalqının gücünə əsaslanan Prezident İlham Əliyevin son 200 ildə Azərbaycanın heç bir dövlət başçısının həll edə bilmədiyi mühüm bir missiyasıdır.

Xalqın birlik, qüdrət və zəfər simvoluna çevrilən Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycan Respublikasının daha da qüdrətlənməsinə, xalqımızın rifahının daha da yüksəldilməsinə, dövlətimizin qarşısında dayanan növbəti böyük tarixi missiyaların həyata keçirilməsinə yönəlib.

**Vasif QAFAROV,**
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2024.- 25 dekabr (№ 285).- S.15.